# YAZIÇI

"OĞUZ ELİ" qəzetinin ayrıca buraxılışı

FEVRAL 2003-cü il N1(80)

# ƏNVƏR MƏMMƏDXANLI-90

## "Həyatım ağrıyır"

Tez-tez 37-ci il hadisələrini yada salırdı. Hələ lap gənc yazıçı ikən Yazıçılar İttifaqında keçirilən o qanlı iclasların şahidi olub. "Yadımdadır, Sultan Məcid Qənizadə lap qoca kişi idi - o vaxtkı proletar yazıçılardan biri - adını deyirdi Ənvər, mən yazmıram - qocanın az qala boğazını üzürdü ki, ver bura üzvlük biletini, səni İttifaqdan çıxarmışıq. O qoca yazıq da zəif səslə: verməərəm, - deyirdi, bu kitabçaya Maksim Qorki özü imza atıb... Nə fayda, tutub aldılar əlindən... Qoca kişini tutdular, məhv etdilər, amma az müddətdən sonra həmin o bileti ondan alanı da tutub basdılar, o da qayıtmadı... Nə isə... bu bir dövr idi ki, onun faciəsini ancaq Şekspir qələminə sahib olan bir sənətkar yarada bilər...

Stalin haqqında deyirdi: şineli rəngdə boz bir həyat qoyub getdi bizə...

**Anar**

*Anarın "Şəhidlər dağı" ("Gənclik"-1995) kitabında Ə. Məmmədxanlıya həsr olunmuş "Həyatım ağrıyır" yazısından parçalar ayrı-ayrı səhifələrdə veriləcək.*



**Vaqif Bayatlı Odər**

## Ölüm - Türkün göy yürüşü

*Babəki əsl Babək kimi şanlı Türk tarixinin ən şərəfli səhifələrindən biritəkin dünyaya tanıtdıran ölümsüz Türk Bilgəsi Ənvər Məmmədxanlıya*

Əsl döyüşçüyə səngəri qəfəs!
Düşmən səngərin al sarı yarama.
Döyüş o səngərdə döyüşdü ancaq,
Gedib qayıtmasa aldığım nəfəs
Nəfəsi ölümdən geri almağa
Ölümün üstünə yürüşdü ancaq.

Türk haqqdı, haqq da Türk! Türklə haqq birsə,
Son əsr Türk yurdun alıb durmasaq,
Heç bir Türkün gözü bağlana bilməz,
Düşmən yuxusuna yurdumuz girsə,
O an duyuq düşüb onu vurmasaq,
Düşmən zamanında haqlana bilməz.

Nəfəsi doğmalar, səsi doğmalar
Heç vaxt deyilməyən nəğmələr deyib
Heç vaxt alınmayan yurdlar aldılar
O qılınc qanadlı atlı nəğmələr
Ölən əsgəri də ata gıldırar
Ölən atları da qanadlandırar.

Ölüm də bir uçuş, əvvəlcə yerə,
Sonra yer altına, sonra göylərə
Ölüm həm də yürüş hər Türk oğluna,
"Öldün Türk?" Qalx, göyün boş qalan andı
Onsuz da yer sənin,
Onsuz da yer Türkün! Qalx göy uğruna,
Türkün göy yürüşü başlanan andı.

# Ənvər Məmmədxanlı bu dünyanın ən nadir adamlarından biridir

İlk öncə bir-birindən gözəl povest və hekayələrinin bal kimi şirin dili, təmiz təhkiyyəsi, uca ruhuyla heyran eləmişdi məni. Hələ kənddə yaşayanda bu əsərlərin müəllifi gözümdə əlçatmaz, qeyri-adi bir adama çevrilmişdi.

Sonra Bakıya gəldim, ədəbi mühitə ayaq açdım, amma Ənvər müəllim yenə də öz əlçatmazlığındaydı. Yalnız "Ədəbiyyat və incəsənət" qəzetində işlədiyim illərdə onunla şəxsən tanış oldum. Sonra tale elə gətirdi ki, Çəmbərəkənddə alimlərin kooperativ evində kirayəşin qalanda qonşu olduq və məni subay adamın yaşadığını ilk baxışdan bəlirdən, kitablarla dolu mənzilinə dəvət etdi. Sonralar imkan tapdıqca görüşürdük. Maraqlı söhbətlərini dinləyirdim, arabir şahmat oynayırdıq.

Ənvər Məmmədxanlı zahirən qapalı adamdı, hər yetənlə ünsiyyət quran deyildi, lakin müəyyən münasibət yaranandan sonra onun nə qədər səmimi, aydın, təmiz, əsl ruh adamı olduğuna heyrətlənirdin...Dünya qayğılarından, cəmiyyətin dedi-qodularından uzaqdı, onunla görüşən başqa adamlar da, istər-istəməz onun uca aləminə qovuşurdular.

İlk görüşlərimizdə mən onun hekayə və povestləri, "Azərbaycan" jurnalında oxuduğum "Leyli və Məcnun" kinopovesti haqqında fikirlərimi söyləmişdim, sakitcə dinləmişdi, sanki başqa birisi barədə söhbətə qulaq asırdı,təkcə idi,ifadəli gözlərinin parıltısından onu gördüyü işlərin dəyərini yetərincə bildiyi hiss olunurdu.

Sonralar ara-sıra mənim iş yerlərimdə "Ədəbiyyat və incəsənət" qəzetində, "Yazıçı" nəşriyyatında da görüşürdük. Dostlarının dairəsi məhduddu, amma qəribə bu idi ki, onun yaxın olduqlarının əksəriyyəti həm də mənim dostlarımdı.

Ovqatının yaxşı vaxtlarından birində "Babək" romanının üstündə işlədiyini demişdi. Çox qısa, adi bir şey haqqında danışırmış kimi, amma sonralar romanın birinci hissəsi nəşr olunanda öz ədəbi-fəlsəfi çəkisinə görə nadir bir nümunəsini yaratdığını başa düşdüm. Təəssüf ki, taleyin kəmfürsətliyini nəzərə almayıbmış. Ömür bitdi, roman bitmədi. Əsərin o siqlətlə davam edib başa çatmasının ədəbiyyatımız üçün nə boyda bir qazanc olacağını təsəvvürə gətirmək çətindir. Lakin indinin özündə də, yarımçıq vəziyyətində də "Babək" nəsrimizin şah əsərlərindən biridir.

Bir dəfə istirahət günlərinin birində Şüvəlan Yaradıcılıq Evində rastlaşdıq. Burda dincəlirdi, mən də istirahət günü havamı dəyişməyə çıxmışdım. Bir az gəzib dolaşdıq, sonra Vaqif Bayatlı Odərlə məni Buzovnadakı bağına dəvət elədi. Əvvəlki səliqə-sahmanını itirməsi həm Ənvər müəllimin, həm də Rəsul Rzanın qonşudakı bağına qəribə bir hüzn, tənhalıq gətirmişdi.

Neçə milyonluq şəhərin böyründəki bu bağı ömrün keçəriliyini başqa heç yerdə duymadığım bir şəkildə qabardır və insanın içi, ifadəsi müşkül olan bir kədərlə dolur.

Mən bu hüznün içindəydim, nitqim bağlanmışdı, elecə bu bağların bir küncündə təklənib düşünmək istəyirdim.

Amma, nədənsə, həmin gün Ənvər Müəllim tanınmaz dərəcədə şəndi, zarafatından yorulmurdu, bəlkə də bu bağların ötüb keçmiş gəncliyin ağır xatirəsi altında sınmamaq və ya özünü sındırmamaq üçün belə edirdi, hər halda o günkü halı hansı duyğularlasa gizli vuruşa da bənzəyirdi.

Görünür, bağda yaxşı kitabxanası varmış,indisə səliqəsizdi. "Bilmirəm kimə qismət olacaq, nəyi istəyirsiniz götürün",- dedi. Bu sözlərdən sonra nəyə əl vura bilərdim ki!

Ancaq o həssas adamdı, durumumu duydu, zorla bir qucaq qiymətli kitabını Vaqifə, bir xeyli kitabı da mənə verdi. Həmin kitablar, o cümlədən Heynenin çoxcildlik külliyyatı indi də kitabxanamdadır və onlara baxanda kitabların, kitab müəlliflərinin aqibətini düşünürəm.

Ənvər müəllimin ağ saçları bir bulud parçasına bənzəyirdi. Mənə elə gəlir ki, o, yağışını yağdırmaq üçün yer, məqam axtara-axtara yaşadı, yağışını yağdırmadı, getdi...

SABİR RÜSTƏMXANLI

6 dekabr, 2002